**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A. BAKIXANOV adına TARİX İNSTİTUTU**

*Əlyazması hüququnda*

**AYBƏNİZ VİLAYƏT qızı RÜSTƏMOVA**

# AZƏRBAYCAN RESPUBLİKASI BEYNƏLXALQ TƏHLÜKƏSİZLİK VƏ ƏMƏKDAŞLIQ SİSTEMİNDƏ (2001-2010-cu illər)

**İxtisas: 5503.02 – Vətən tarixi**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi**
**almaq üçün təqdim edilmiş dissertarsiyanın**

# A V T O R E F E R A T I

**BAKI-2018**

Dissertasiya işi AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun "Beynəlxalq münasibətlər tarixi" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:**
tarix üzrə elmlər doktoru, professor **H. C. Əlibəyli**

**Rəsmi opponentlər:**
tarix üzrə elmlər doktoru: **S. İ. Əliyeva**
tarix üzrə fəlsəfə doktoru, dosent **A. B. Rzayev**

**Aparıcı təşkilat: Azərbaycan Dövlət Pedoqoji Universitetinin "Azərbaycan tarixi" kafedrası**

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun nəzdində 5503.02 – Vətən tarixi, 5502.01 – Ümumi tarix, 5507.01 -"Beynəlxalq münasibətlər tarixi" və 5509.01 – Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları ixtisasları üzrə tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcələri almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.161 saylı Dissertasiya Şurasının "___" _________2018-ci il tarixli iclasında saat ____ keçiriləcəkdir.

**Ünvan:** Az.1143, Bakı şəhəri, H.Cavid prospekti, 115

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində tanış olmaq olar.

Avtoreferat "_____"___________2018-ci ildə göndərilmişdir.

Dissertasiya Şurasının elmi katibi
tarix üzrə fəlsəfə doktoru **C.Ə.BƏHRAMOV**

# DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı:** Milli təhlükəsizliyin və dövlətçiliyin qorunub saxlanılmasında Azərbaycan Respublikasının beynəlxalq təhlükəsizlik və əməkdaşlıq proseslərində iştirakı xarici siyasətin qarşısında duran mühüm vəzifələrdən biridir. Müasir Azərbaycan dövlətinin beynəlxalq münasibətlər sisteminin müxtəlif sahələrində tutduğu yer, mövqe və yeridilən müxtəlif ölkələrlə əməkdaşlıq siyasəti milli Azərbaycan tarixşünaslığı üçün mühüm elmi əhəmiyyət kəsb edir. Dövlət müstəqilliyinin bərpa olunduğu ilk dövrlərdən başlayaraq Azərbaycan Respublikası dünya və region dövlətləri, beynəlxalq təşkilat və birliklərlə ikitərəfli və çoxtərəfli əməkdaşlıq münasibətləri yaratmış, hazırda regional və qlobal təhlükəsizliyin qorunmasına öz töhfələrini verir. Azərbaycan dövlətinin region və dünya ölkələri ilə geosiyasi münasibətlərinin, milli inkişaf və təhlükəsizlik sahəsində yürütdüyü xarici siyasət strategiyasının əsas vəzifələrindən biri Prezident İlham Əliyevin söylədiyi kimi "...ölkənin müstəqilliyini möhkəmləndirmək, davamlı inkişafını və suveren dövlət hüquqlarını təmin etmək, beynəlxalq münasibətlərin əksər subyektləri ilə qarşılıqlı faydalı münasibətlərini yaratmaq və milli maraqlarını maksimum qorumaqdan ibarətdir".[1] Müasir dövrdə təhlükəsizliyin təmin olunması və bu sahədə əməkdaşlıq dünyada və Avro-Atlantik məkanda siyasi-iqtisadi inteqrasiyanın, demokratik prinsiplərin və dəyərlərin yayılmasının, sabit və davamlı sülhün mühüm şərti hesab olunur. Yerləşdiyi coğrafi məkan, Avropa və Asiyanın tarixi və mədəni dəyərlərinə malik olması Azərbaycan Respublikasını Avro-Atlantik təhlükəsizlik məkanının vacib obyektinə çevirir. Onun təhlükəsizliyi dar çərçivədə Cənubi Qafqazın və Mərkəzi Asiyanın, geniş mənada Yaxın və Orta Şərqin təhlükəsizliyi baxımından böyük əhəmiyyətə malikdir.

"Azərbaycan Respublikası beynəlxalq təhlükəsizlik və əməkdaşlıq sistemində (2001-2010-cu illər)" mövzusunda tədqiqat işi yeni mərhələdə beynəlxalq münasibətlərin təhlükəsizlik problemlərini, Azərbaycan Respublikasının milli təhlükəsizliyi və xarici siyasətinin qarşısında duran vəzifələri, Avropanın aparıcı beynəlxalq təşkilatları ilə əməkdaşlığını, ümumavropa təhlükəsizlik məkanının qurulmasında iştirakı məsələlərini öyrənmiş, beynəlxalq təhlükəsizliyin təmin olunmasında bu təşkilatların əlaqələndirilmiş fəaliyyətini araşdırmışdır.

[1] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqləri, çıxışları, müsahibələri və bəyanatları. http://www.president.az/articles/11725

**Tədqiqatın xronoloji çərçivəsi**: Dissertasiya xronoloji baxımdan 2001-2010-cu illəri əhatə edir. Bu dövrdə qlobal və regional təhlükəsizliyə yeni təhdidlərin yaranması Avropada təhlükəsizlik sistemi daxilində tərəfdaşlığa əsaslanan inteqrasiya proseslərinə təkan verdi. İnteqrasiya prosesləri beynəlxalq əməkdaşlığı zəruri edir və müxtəlif səviyyədə əməkdaşlıq sistemlərinin qurulması qlobal və regional miqyasda sülhü təmin edə bilər. Bu baxımdan tədqiq olunan mövzu hərbi, siyasi, iqtisadi cəhətdən fərqli gücə və imkanlara malik dövlətlərin ümumi inteqrasiya proseslərinə cəlb olunmasının səmərəsini və perspektivini öyrənir.

2001-ci ildən etibarən terrorizmə qarşı mübarizə dövlətlərin və beynəlxalq təşkilatların başlıca vəzifəsinə çevrildi. Azərbaycan Respublikasının xarici siyasətində dünya dövlətləri və beynəlxalq təşkilatlarla əməkdaşlığın keyfiyyətcə yeni mərhələsi başladı. Problemin mahiyyətini daha geniş öyrənmək və düzgün nəticələr çıxarmaq məqsədilə dissertasiyada bir sıra hallarda öncəki onilliyə nəzər salınmış və bu dövrə aid araşdırmalara müraciət edilmişdir.

**Mövzunun öyrənilmə səviyyəsi**: Təhlükəsizlik və əməkdaşlıq problemləri, Avro-Atlantik inteqrasiya proseslərində Azərbaycanın rolu və iştirakı məsələsi Azərbaycan milli tarix elminin diqqət mərkəzində duran aktual mövzulardan biridir. Böyük enerji layihələri, Şərqi və Qərbi birləşdirən nəqliyyat dəhlizlərinin yaradılması, Avropa İttifaqı, NATO, Avropa Şurası və ATƏT kimi təşkilatların Şərqə doğru genişlənməsi Azərbaycanın strateji əhəmiyyətini artırır. Ölkənin təhlükəsizlik problemi tarixşünaslıqda bir neçə aspektdən: enerji təhlükəsizliyi, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq prinsipləri əsasında həlli, Cənubi Qafqazda regional münaqişələrin nizamlanması, siyasi, iqtisadi inteqrasiya prosesləri baxımdan araşdırılır.

Ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin nitqləri, çıxışları, müsahibələri və bəyanatları mövzunun tədqiqatı üçün xüsusi əhəmiyyət kəsb edir[1]. Dissertasiya üzərində iş zamanı beynəlxalq təşkilatlarla əməkdaşlığın öyrənilməsində ümummilli lider Heydər Əliyev və Prezident İlham Əliyevin[2] beynəlxalq toplantı və sammitlərdə iştirakını şərh edən nəşrlərdən geniş istifadə edilmişdir.

---

[1] Sülh və təhlükəsizlik naminə. Azərbaycan Prezidenti H.Əliyevin NATO-nun 50 illik yubileyi ilə əlaqədar ABŞ-a səfəri. 22-27 aprel 1999-cu il. Bakı: Nurol, 2000, 232 s.

[2] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqləri, çıxışları, müsahibələri və bəyanatları. http://www.president.az/articles/12019

Azərbaycan Respublikasının xarici siyasət prinsipləri və prioritetləri, beynəlxalq təşkilatlara inteqrasiyası Ə.Həsənovun "Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti"[1] əsərində geniş və əsaslı şəkildə təqdim olunur. Müasir təhlükəsizlik proseslərinə təsir göstərən qlobal və regional amillərin öyrənilməsi baxımından akademik Ramiz Mehdiyevin əsərlərini qeyd etmək lazımdır. "Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti" adlı kitabda müəllif Azərbaycan Respublikasının regional proseslərdə rəqabətə davamlılığını və Cənubi Qafqazda iqtisadi liderliyini təmin etməyə yönələn modernləşmə meyllərini şərh edir. Qlobal rəqabət şəraitində fəal iqtisadi siyasətin aparılması, regional və qlobal layihələrin inkişafı təhlükəsizlik sahəsində əməkdaşlığın zəruri amili kimi çıxış edir[2]. "Azərbaycan: qloballaşma dövrünün tələbləri" kitabında müəllif inteqrasiya proseslərinin əhəmiyyətini qeyd etməklə yanaşı, beynəlxalq təsisatların təsirlərinin nəzərə çarpacaq şəkildə genişlənməsinin milli dövlətçilik üçün müəyyən təhlükələr yaratdığını qeyd edir.

1991-1995-ci illərdə Azərbaycanın BMT, NATO, ATƏM, AŞ, MDB, İƏT və digər təşkilatlarla əlaqələri, parlamentlərarası əməkdaşlıq, Rusiya və ABŞ-la, Avropa, Asiya və Afrika ölkələri ilə, o cümlədən keçmiş sovet respublikaları ilə əlaqələri ilk dəfə olaraq M.Qasımlı tərəfindən hərtərəfli şəkildə öyrənmişdir.

Azərbaycanın AŞ ilə əlaqələrinin tarixi, DQ münaqişəsinin həlli istiqamətində təşkilatın fəaliyyəti, demokratik islahatlar və insan hüquqları sahəsində əməkdaşlıq, demokratik proseslərin rolu A.Mehdiyevin "Azərbaycan Avropa Şurasında" adlı kitabında və A.Vəliyevin tədqiqat işlərində araşdırılır.

Azərbaycan-ATƏT münasibətləri, MQ-nun vasitəçilik siyasəti, NATO, Aİ ilə əməkdaşlıq E.Əhmədovun monoqrafiya və məqalələrində geniş öyrənilir. NATO-Azərbaycan əməkdaşlığı həm tarixçi alimlər, həm də siyasi və hərbi analitiklər tərəfindən geniş öyrənilmişdir. Alyansla münasibətlərin hərbi istiqamətləri hərbi ekspert C.Sümərinlinin məqalələrində şərh olunur.

---

[1] Həsənov Əli. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: Azərbaycan, 2005, 751 s.

[2] Mehdiyev Ramiz. Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti. Bakı: Şərq-Qərb, 2008, 216 s.

Təhlükəsizlik problemləri, milli və kollektiv təhlükəsizliyin formalaşmasında Avropa təcrübəsi, AŞ və ATƏT-lə münasibətlər, NATO-da islahatlar və Azərbaycanla əməkdaşlığın istiqamətləri, Aİ-nin Cənubi Qafqazda strateji maraqları, inteqrasiya prosesləri M.Haqverdiyev, R.Sadıqov, O.Rzayev, Ü.İmaməliyeva, A.Güləliyeva, B.Muradova və A.Əliyevanın dissertasiya işlərində tədqiq edilmişdir.

Dissertasiya işi yazılarkən bir sıra xarici müəlliflərin əsərlərinə müraciət olunmuşdur. Rus tarixçisi S.Çernyavskinin "Azərbaycanın yeni yolu" kitabı gənc Azərbaycan Respublikasının təhlükəsizlik siyasətini, DQ münaqişənin dinc həlli sahəsində fəaliyyətini, İran, Türkiyə, Rusiya kimi region dövlətləri, o cümlədən Qərb dövlətləri və birlikləri ilə əməkdaşlığını öyrənir. ABŞ-ın siyasi xadimi və politoloq Z.Bjezinskinin "Böyük şahmat taxtası" kitabı soyuq müharibədən sonrakı dövrdə dünyada və Avrasiya qitəsində geosiyasi vəziyyəti analiz edir, ABŞ-ın qlobal fövqəldövlət siyasəti, beynəlxalq münasibətlərdə Rusiyanın mövcud və gələcək mövqeyini araşdırır[1]. 2000-ci ilə qədər olan dövrü əhatə etməsinə baxmayaraq kitab, müasir təhlükəsizlik anlayışına dair Amerika və Qərb siyasi baxışları ilə tanış olmağa imkan verir. Təhlükəsizlik və əməkdaşlıq probleminə ümumi tarixi yanaşmalar rus alimi P.A.Çıqankovun əsərində işıqlandırılır. Kitabın "Beynəlxalq təhlükəsizlik" adlanan fəsili beynəlxalq münasibətlər tarixində və elmində tarixən formalaşan təhlükəsizlik və əməkdaşlıq ideyalarının və prinsiplərinin mahiyyətini, o cümlədən müasir mərhələdə hansı dəyişiklərə məruz qaldığını araşdırır. Tərksilah, müdafiə sahəsində demokratik vasitələrin idarə olunması, mülki və hərbi strukturlar arasında qarşılıqlı münasibətlər, böhranlı halların nizamlanması və həlli, əməkdaşlıq əsasında təhlükəsizlik məsələləri Marşall mərkəzinin dövrü nəşrlərində təqdim olunur. Bu nəşrlərdə NATO beynəlxalq təhlükəsizliyin aparıcı siyasi və hərbi qüvvəsi kimi göstərilir, ABŞ və NATO-nun birgə fəaliyyəti dünya qaydasını müəyyən edən və bir-birini tamamlayan qüvvə kimi xarakterizə edilir.

ABŞ-ın tanınmış siyasi xadimi H.Kissincerin "Diplomatiya" əsəri SSRİ-nin süqutundan sonra yeni dünya qaydasının qurulmasında ABŞ-Rusiya münasibətlərini, NATO-nun iştirakı və gələcək fəaliyyətini, dəyişməkdə olan ənənəvi transatlantika münasibətlərini araşdırır[2]. Soyuq müharibədən sonra Qərb-Şərq və ABŞ-Rusiya münasibətləri, NATO-nun

---

[1] Бжезинский З. Великая шахматная доска. Господство Америки и его геостратегические императивы. Москва: Международные отношения, 2005, 256 с.

[2] Киссинджер Генри. Дипломатия. Москва: Ладомир, 1997, 848 с.

Şərqə doğru genişlənməsi, Yuqoslaviyanın parçalanması, Bosniya böhranı, Kosovoda NATO və müttəfiqlərin sülhyaratma əməliyyatları digər amerikalı siyasi xadim M.Olbraytın memuarlarında özünəməxsus şəkildə təsvir edilmişdir.

Soyuq müharibədən sonra Avropada yeni təhlükəsizlik vəzifələrinin meydana çıxması, NATO-nun Qərbi və Şərqi Avropada aparıcı mövqeyi və sülhyaratma əməliyyatları, tərksilah siyasəti, insan hüquq və azadlıqları, demokratik və təhlükəsiz Avropa ideyası M.Tetçerin "Dövləti idarə etmə məharəti. Dəyişən dünya üçün strategiyalar" kitabında əks olunmuşdur. Kitab əsasən soyuq müharibənin nəticələri, ABŞ-ın keçmişdə və müasir mərhələdə rolu, Rusiya, Asiya ölkələri, Yaxın Şərqdə inkişaf yolları, Balkanlarda qeyri-sabitlik, beynəlxalq terrorizm kimi məsələlərə dair suallara cavab axtarır və Avropada inteqrasiya proseslərini, beynəlxalq institutların hakimiyyətinin genişlənməsini milli dövlətlərin müstəqilliyi üçün həm də təhlükə kimi qiymətləndirir.

**Tədqiqatın mənbə bazası**: Dissertasiya üzərində işləyərkən mənbə materiallarından geniş istifadə olunmuşdur. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası dövlətimizin milli və beynəlxalq təhlükəsizik maraqlarının, təhlükəsizlik mühitinin, təhlükəsizlik və əməkdaşlıq sisteminə inteqrasiya proseslərində məqsəd və vəzifələrinin öyrənilməsində böyük əhəmiyyətə malikdir və dissertasiya üzərində iş Konsepsiyanın başlıca müddəa və prinsipləri nəzərə alınmaqla aparılmışdır.

46 kitabdan ibarət "Müstəqilliyimiz əbədidir" nəşrlər toplusu[2] H.Əliyevin hakimiyyətə gəldiyi dövrdən etibarən Azərbaycanın xarici siyasətini araşdırmaq baxımından qiymətli mənbə rolunu oynayır. Prezident İ.Əliyevin çıxışları, nitqləri əsasında tərtib olunmuş çoxcildli "İnkişaf - məqsədimizdir"[3] adlı kitablar müasir mərhələdə Azərbaycanın xarici siyasət məqsədləri və vəzifələri haqda geniş məlumatlar əldə etməyə imkan verir[2]. 2011-ci ildə AŞ-a üzvlüyün 10 illiyinə həsr olunan "Azərbaycan vahid və bölünməz Avropada", 2009-cu ildə Brüsseldə çapdan çıxan "Azərbaycan-NATO: Tərəfdaşlığın 15 ili" kitabları AŞ və NATO ilə əməkdaşlığı analitik şəkildə nəzərdən keçirir.

---

[2] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: 46 cilddə. Bakı: Azərnəşr, 1997-2013, http://heydaraliyev.preslib.az/musteq.html

[3] Əliyev İlham. İnkişaf - məqsədimizdir: 46 cilddə (2003-) Bakı: Azərnəşr, 2008-2017

Dissertasiyanın yazılmasında beynəlxalq təşkilatların təsis və nizamnamə sənədlərinə, konsepsiya və doktrinalarına geniş müraciət edilmişdir. Təhlükəsizlik və əməkdaşlığın beynəlxalq hüquqi bazası BMT-nin Nizamnaməsi və digər sənədləri, ATƏM-in 1975-ci il Helsinki Yekun aktı, 1992-ci il Helsinki sənədi, adi silahlara və etimad tədbirlərinə dair sənədlər, NATO-nun konsepsiya və strateji sənədləri, təhlükəsizlik və əməkdaşlıq sahəsində Aİ və AŞ-ın qəbul etdiyi sənədlər və d. rəsmi məlumatlar əsasında əhatəli şəkildə öyrənilmişdir. Xarici İşlər Nazirliyinin dövrlər üzrə nəşr etdirdiyi "Azərbaycanın xarici siyasəti. Sənədlər məcmuəsi" kitablarından, dövrü mətbuat və rəsmi xəbər agentliklərinin, eləcə də müvafiq dövlət qurumlarının (Müdafiə Nazirliyi, Prezident Admnistrasiyası və s.) rəsmi internet səhifələrindən səmərəli şəkildə istifadə edilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri**: Tədqiqatın əsas məqsədi tarixçi alimlərin elmi araşdırmaları, tarixi elmi ədəbiyyat və digər mənbələr əsasında Azərbaycanın beynəlxalq təhlükəsizlik və əməkdaşlıq sistemində iştirakını hərtərəfli şəkildə araşdırmaqdan ibarətdir. Bu məqsədə nail olmaq üçün tədqiqat işində aşağıdakı konkret vəzifələr qarşıya qoyulmuş və onların həllinə cəhd edilmişdir: nəzəri və praktiki baxımdan təhlükəsizlik və əməkdaşlıq anlayışlarına aydınlıq gətirmək, yeni dövrün təhlükəsizlik təhdidlərini və onlara qarşı mübarizə metodlarını, müasir təhlükəsizlik və əməkdaşlıq sisteminin əsaslandığı dəyərləri və prinsipləri araşdırmaq; Avro-Atlantik təhlükəsizlik proseslərinin mahiyyətini, müasir vəziyyətini izah etmək və gələcəyini proqnozlaşdıra bilmək; təhlükəsizlik və əməkdaşlıq sisteminin səmərəliliyi və perspektivliyini öyrənmək; Azərbaycan Respublikasının milli və beynəlxalq təhlükəsizlik sahəsində xarici siyasətinin başlıca prinsiplərini, məqsəd və vəzifələrini, qəbul etdiyi və qoşulduğu strateji sənədləri tədqiq etmək; Avro-Atlantik məkanda siyasi, iqtisadi mövqeyini, qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlıq və tərəfdaşlıq münasibətlərini, bu münasibətlərdə meydana çıxan həssas və ziddiyyətli məqamları üzə çıxarmaq; beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində DQ münaqişəsinin beynəlxalq hüquq çərçivəsində həllini araşdırmaq və qiymətləndirməkdir.

**Dissertasiya işinin metodoloji əsası**: Dissertasiyanın metodoloji əsasını elmi obyektivlik, tarixilik, problemin müqayisəli və tənqidi təhlil üsulu ilə öyrənilməsi təşkil edir.

**Tədqiqatın elmi yeniliyi**: Dissertasiyanın başlıca elmi yeniliyi müvafiq xronolji çərçivədə beynəlxalq təhlükəsizlik və əməkdaşlıq proseslərində Azərbaycan Respublikasının iştirakının ilk dəfə kompleks

şəkildə, ayrıca tədqiqat obyekti olaraq öyrənilməsidir. Aparılan araşdırmalar, beynəlxalq hüquqi sənədlər, tarixi ədəbiyyat və müxtəlif mənbə materiallarının təhlili aşağıdakıları da dissertasiyanın elmi yeniliyi hesab etməyə əsas verir: qlobal və regional miqyasda təhlükəsizlik problemlərinin həllində beynəlxalq təşkilatların fəaliyyəti tədqiqat obyekti kimi seçilmişdir; beynəlxalq təhlükəsizlik və əməkdaşlıq proseslərinə təsir göstərən obyektiv və subyektiv amillər araşdırılmış, ümumi təhlükəsizliyə fərqli yanaşmaların mövcudluğu sübut edilmişdir; təhlükəsizlik və əməkdaşlıq sisteminin müasir vəziyyətinin analizi onun gələcəyinə dair proqnozlar verməyə imkan vermişdir; DQ münaqişəsinin nizamlanmasında BMT, Aİ, NATO, AŞ, ATƏT kimi təşkilatlarda vasitəçilik institutunun fəaliyyəti araşdırılmış və onun səmərəsini artırmaq məqsədilə mövcud hüquqi bazanın inkişaf etdirilməsinin zəruriliyi təsdiq edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**: Dissertasiyanın əməli əhəmiyyəti ilk növbədə ondan ibarətdir ki, tədqiqat işində əldə olunan faktiki materiallardan, məlumat və elmi nəticələrdən Azərbaycan tarixi üzrə dərsliklərin və ümumiləşdirici əsərlərin hazırlanmasında istifadə oluna bilər. Elmi işin nəticələri Respublikanın beynəlxalq təşkilatlarda iştirakına dair xarici siyasətin hazırlanmasında, həyata keçirilməsində gərəkli ola bilər. Tədqiqat zamanı əldə edilən elmi nəticələrdən eyni zamanda Respublikanın ali məktəblərinin tarix, beynəlxalq münasibətlər fakültələrində mühazirələrin oxunması və xüsusi kursların tədrisi məqsədilə də istifadə edilə bilər.

**Tədqiqatın aprobasiyası**: Dissertasiya işi AMEA A.A. Bakıxanov adına Tarix İnstitutunun "Beynəlxalq münasibətlər tarixi" şöbəsində yerinə yetirilmişdir. Tədqiqatın əsas müddəaları, əldə etdiyi nəticələr müəllifin bu problemlə bağlı nəşr etdirdiyi elmi məqalələrində, iştirak etdiyi beynəlxalq elmi-praktik konfranslardakı çıxışlarında öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu**: Dissertasiya giriş, 9 paraqrafdan ibarət 3 fəsil, nəticə, istifadə olunmuş mənbə və ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **giriş** hissəsində tədqiq olunan mövzunun aktuallığı əsaslandırılmış, öyrənilmə səviyyəsi və mənbə bazası təhlil edilmiş, elmi işin məqsəd və vəzifələri, elmi yeniliyi, praktiki əhəmiyyəti göstərilmişdir. **Birinci fəsil "Beynəlxalq təhlükəsizlik problemləri və Azərbaycan Respublikasının xarici siyasəti**" adlanır və iki bölmədən ibarətdir.

Birinci fəslin birinci bölməsi “Müasir dövrün təhlükəsizlik problemləri” adlanır. 2001-ci ilin sonlarından etibarən qlobal miqyaslı təhdidlər nəzərə alınmaqla əməkdaşlıq əsasında təhlükəsizliyin təmin olunması ideyası inkişaf etdirildi. Bu təhdidlər beynəlxalq həyatın demək olar bütün sahələrini, xarici və daxili siyasəti, siyasi, iqtisadi və ictimai münasibətləri əhatə edir. Onların bir çoxu soyuq müharibə dövründən fərqli olaraq mahiyyətcə hərbi xarakter daşımır. Bu bölmədə qloballaşma meylləri, enerjiyə artan tələbat və enerji təhlükəsizliyi, qlobal istiləşmə və iqlim dəyişikləri, miqrasiya axınları, kütləvi qırğın silahlarının (KQS) yayılması, tərksilah, bioloji elmlərin inkişafı nəticəsində yaxın gələcəkdə bioloji silahların artma ehtimalı, kiber təhlükəsizlik, ekstremizmə, terrorçuluğa, dövlətçiliyin dağılmasına səbəb olan, mütəşəkkil cinayətkarlığın yaranmasına şərait yaradan münaqişələr, terrorizm, narkotik qaçalmalçılığı və d. təhdidlər geniş şəkildə öyrənilir. Aİ, NATO, AŞ, ATƏT kimi təşkilatların bu təhlükələrə qarşı mübarizəsi və fəaliyyəti təhlil edilir, eyni zamanda təhlükəsizlik maraqlarının qorunması adı altında böyük dövlətlərinin tərəfdaş dövlətlərə siyasi, iqtisadi, diplomatik təzyiqləri üzə çıxarılır.

**Birinci fəslin ikinci bölməsi** “Beynəlxalq təhlükəsizlik və əməkdaşlıq məsələləri və Azərbaycan Respublikasının xarici siyasəti” adlanır. Azərbaycan Respublikasının xarici siyasətinin başlıca vəzifələrdən biri milli təhlükəsizliyi təmin etmək və beynəlxalq əməkdaşlıq proseslərində yaxından iştirak etməkdir. Enerji mənbələrinə malik olması, enerji təchizatı şəbəkəsinin mühüm tərkib hissəsinə cevrilməsi, coğrafi şəraiti Azərbaycana böyük üstünlüklər verməklə yanaşı, bir sıra təhlükəsizlik problemləri də yaradır. Ermənistanın hərbi təcavüzü nəticəsində zəbt olunmuş ərazilərdə transmilli mütəşəkkil cinayətkarlıq, beynəlxalq terrorçuluq, qeyri-qanuni miqrasiya, insan alveri, narkotik vasitələrin qaçaqmalçılığı və KQS-ın yayılması kimi təhdidlərin mövcudluğu da dövlətin qarşısında ciddi vəzifələr qoyur. Azərbaycanın təhlükəsizlik siyasətinin prioritet vəzifəsi beynəlxalq hüquqda təsbit olunmuş bütün vasitələrdən istifadə etməklə ərazi bütövlüyünü bərpa etməkdir. Bu bölmədə eyni zamanda təhlükəsizliyin təmin olunmasında mühüm rol oynayan daxili və xarici amillər, sabit iqtisadi inkişaf siyasəti, peşəkar insan ehtiyatlarının hazırlanması, hərbi təcavüz, qlobal iqlim dəyişikliyi, neft sənayesinin inkişafı və digər səbəblərlə bağlı yaranan ekoloji problemlər araşdırılır. Azərbaycanın BMT, NATO, Aİ, ATƏT, Aİ kimi təşkilatlarla əməkdaşlığının prinsipləri, məqsədləri öyrənilir, hazırkı vəziyyəti təhlil edilir. Regionda inteqrasiya prosesləri, Qara Dəniz İqtisadi Əməkdaşlıq

Təşkilatı, "Demokratiya və iqtisadi inkişaf naminə - GUAM" təşkilatlarının işində Azərbaycanın iştirakı, İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı ilə, Cənub-Şərqi Asiya, Uzaq Şərq, Mərkəzi və Orta Asiya kimi ölkələrlə əlaqələr, Rusiya, Türkiyə, İran kimi qonşu dövlətlərlə əməkdaşlıq araşdırılır. Qarşılıqlı münasibətlərdə üst-üstə düşən və ziddiyyət təşkil edən maraqlar öyrənilir. Strateji tərəfdaş hesab edilən ABŞ-la münasibətlər tədqiq olunur.

**İkinici fəsil "Azərbaycan Respublikası və beynəlxalq təhlükəsizlik və əməkdaşlıq təşkilatları"** adlanır və beş bölmədən ibarətdir. İkinci fəslin birinci bölməsi **"Azərbaycan Respublikası və BMT"** adlanır. Bu bölmədə qlobal təhlükəsizliyə təhdidlərin müəyyən olunması və onlara qarşı kollektiv mübarizə tədbirləri çərçivəsində BMT ilə əlaqələrin ümumi təsviri verilir. Azərbaycan DQ münaqişəsinin, eləcə də digər münaqişə və böhranlı halların beynəlxalq hüquq çərçivəsində nizamlanmasının, vasitəçilik sahəsində BMT-nin səmərəliliyinin artırılmasının fəal tərəfdarı kimi çıxış edir və dünyanın müxtəlif rayonlarında sülhyaratma əməliyyatlarında iştirak edir. BMT-nin sülhyaratma siyasətinin çox vaxt böyük dövlətlərin strateji maraqlarına cavab verən hallarda və yerlərdə həyata keçirilməsi, eləcə də gənc və kiçik dövlətlərin bu prosesə cəlb olunması təşkilat çərçivəsində münaqişələrin beynəlxalq hüquq prinsiplərinə və ədalətə əsaslanan həllini böyük şübhə altına alır. 2008-ci ilin martında BA-nın 62-ci sessiyasında "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyətə" dair qətnamə müzakirəyə çıxarılan zaman TŞ-nın üzvü olan ATƏT-in MQ üzrə həmsədrlərinin onun əleyhinə səs verməsi bu fikri müəyyən mənada təsdiq edir.

**İkinci fəslin ikinci bölməsi "Azərbaycan Respublikası və ATƏT"** adlanır. 57 üzv və 11 tərəfdaş dövləti birləşdirən, o cümlədən BMT, Aİ, AŞ və NATO kimi təşkilatlarla əməkdaşlıq quran ATƏT, təhlükəsizlik sahəsində ən böyük potensiala malik təşkilat kimi nəzərdən keçirilir və Helsinki Yekun aktı regionda sülhün və təhlükəsizliyin prinsipial siyasi əsası hesab olunur. Azərbaycan-ATƏT əməkdaşlığı insan hüquqları, demokratik və azad seçkilər, vətəndaş cəmiyyətinin qurulması və inkişaf etdirilməsi, DQ münaqişəsinin dinc siyasi vasitələrlə nizamlanması, sosial, siyasi, iqtisadi, mədəni, silahlara nəzarət və tərksilah, hərbi sahələrdə davam etdirilir. Bu fəsildə Avropada Adi Silahlı Qüvvələrə dair Müqavilə (AASQM), təksilaha nəzarət, təhlükəsizlik və etimadı möhkəmləndirmə məqsədilə yaradılan Vyana sənədlərinin (VS) əhəmiyyəti və mövcud vəziyyəti araşdırılır.

AASQM 1990-cı ildə 19 noyabrda Parisdə NATO və VMT dövlətləri tərəfindən imzalanmışdı və hər bir iştirakçı dövlət tərəfindən beş kateqoriya üzrə silahların və hərbi texnikanın ixtisarını nəzərdə tuturdu. SSRİ-nin dağılmasından sonra Azərbaycan Respublikası Müqavilənin təsir zonasına düşdü və 1992-ci ildə may ayında AASQM-ə qoşuldu. Soyuq müharibə dövründən sonra baş verən məhəlli və regional münaqişələr, silahlanma meyllərinin güclənməsi AASQM-ə əməl olunmasında bəzi çətinliklər yaradırdı. Lissabon sammitində AASQM-nin yenilənməsi və Təhlükəsizlik üzrə əməkdaşlıq forumunun (TƏF) inkişaf etdirilməsi qərara alındı. 1999-cu ilin noyabrında İstanbul sammitində Avropa Təhlükəsizlik Xartiyası, AASQM-nin Yeni şəraitə uyğunlaşdırılmış Sazişi imzalandı, Etimadın möhkəmləndirilməsinə dair yenilənmiş VS və Yekun siyasi bəyannamə qəbul olundu. Yeni sazişə əsasən blok və zona məhdudiyyəti aradan qaldırıldı, hər bir iştirakçı dövlət üçün silahların milli kvotası müəyyən edildi. Azərbaycan üçün bu sənəd üç məqama görə maraqlı idi: 1992-ci il müqaviləsində Azərbaycan üçün müəyyən edilmiş silah kvotası artırılırdı; regionda nəzarətdənkənar silahlı birləşmələrin yaranmasının qarşısını alan mexanizmlər müəyyən olunurdu və 1996-cı ilin Cinah sazişi aradan qaldırılırdı. İstanbul sammitində çıxışında Prezident H.Əliyev AASQM-nin səmərəsini yüksəltməyin vacibliyini qeyd edərək regionun hərbiləşdirilməsinin və işğal olunmuş Azərbaycan torpaqlarında qanuna zidd xarici silahların yerləşdirilməsinin ölkəmizin təhlükəsizliyinə təhdid yaratdığını diqqətə çatdırmışdı. 2007-ci ildə Azərbaycan, Ermənistanın işğalı etdiyi ərazilərdə külli miqdarda silah və texnika cəmləşdirdiyini əsas gətirərək *fors-major* vəziyyətdə olduğunu elan etdi. Öz növbəsində, Rusiyanın 2007-ci ilin noyabrında AASQM-də iştirakına moratorium qoydu, 2010-cu ildə aqvustunda Ermənistanla imzaladığı hərbi əməkdaşlıq protokoluna əsasən adi və strateji silahlarını Cənubi Qafqazda yerləşdirdi. Rusiyanın regionda yerləşdirdiyi silahlar Ermənistanın kvotasına uyğun olmalı və ondan kənara çıxmamalı idi. 2006-2007-ci illərdə Gürcüstandakı hərbi bazalardan çıxarılan Rusiyaya məxsus silah-sursatın böyük hissəsi də Ermənistan ərazisində yerləşdirilmişdi. Lakin bu məsələ o zaman nə rəsmi Bakı, nə də AASQM üzrə digər tərəfdaşlar tərəfindən ciddi müqavimətlə qarşılanmadı. Bir sıra ekspertlər bunu AASQM-ə yenidən baxılacağına dair proqnozlarla əlaqələndirmişdilər. Hesab edilirdi ki, hər bir dövlətə fərqli münasibətin təsbit olunması Azərbaycanın da geniş şəkildə silahlanması üçün əsas verə bilər. AASQM-nin şərtlərinin pozulması Cənubi Qafqazda silahlanmanın daha da genişlənməsi, eləcə də Avro-Atlantik məkanda yeni hərbi-siyasi qütbləşmə meyllərini gücləndirir.

Avropada təksilaha nəzarət, təhlükəsizlik və etimadı möhkəmləndirmək məqsədilə Vyana sənədi (VS, 1992) və TƏF fəaliyyət göstərir. Bütün üzv dövlətlərin nümayəndələrindən təşkil olunan Forumun qərarları siyasi cəhətdən məcburi xarakter daşıyır, əsasən VS-də əks olunur və ratifikasiya olunmadan qüvvəyə minir. Forumun başlıca vəzifələri silahlar və tərksilah üzərində nəzarət və etimad tədbirləri həyata keçirmək, təhlükəsizliyi gücləndirmək; təhlükəsizlik məsələlərinə dair müntəzəm məsləhətləşmələr aparmaq və bu sahədə sıx əməkdaşlıq qurmaq; münaqişələrin baş vermə təhlükəsini azaltmaqdır. VS-nin ayı-ayrı müddəalarındakı dəyişiklərə dair hər bir qərar "VS+" adlanır və heç bir qeyd-şərt olmadan qəbul edildiyi andan qüvvəyə minir. 1999-cu ildə noyabrın 16-da ATƏT-in İstanbul sammitində yeni VS qəbul edildi. Yenilənmiş VS-nin məqsədi beynəlxalq münasibətlərdə dövlətlərin zor tətbiq etməkdən və ya güclə hədələməkdən qarşılıqlı şəkildə imtina etməsinə dair öhdəliklərini bir daha ifadə etmək, etimad və təhlükəsizliyin möhkəmləndirilməsində və tərksilaha nail olunmasında tərəqqinin inkişafına yönələn yeni, səmərəli və konkret fəaliyyəti mərhələli qaydada həyata keçirmək idi. VS-ə müvafiq olaraq iştirakçı dövlətlər hər il hərbi qüvvələr, başlıca silah və texnika sistemləri, müdafiə və hərbi büdcə sahəsində planlaşdırma haqda informasiya mübadiləsi həyata keçirirlər. Sənəd qeyri-hərbi fəaliyyətlə bağlı və hərbi xarakterli təhlükəli hallara münasibətdə məsləhətləşmələr və əməkdaşlıq mexanizmini nəzərdə tutur. Bu sənədə qoşulduğu gündən Azərbaycan SQ-də VS çərçivəsində iştirakçı dövlətlər tərəfindən 50-dən çox "göstərilmiş rayonun" təftişi və 20-dən çox qiymətləndirmə səfəri baş tutmuşdur. Lakin VS-dən irəli gələn öhdəliklər sülh şəraiti üçün nəzərdə tutulduğundan onların işğal olunmuş DQ və ətraf rayonlarda tam yerinə yetirilməsi qeyri-mümkündür. Bu da öz növbəsində sənədin təsir gücünün azalmasına səbəb olur.

ATƏT-lə əməkdaşlığın digər mühüm istiqaməti demokratik islahatlar sahəsidir. Bu sahədə əməkdaşlıq həm də AŞ-la birlikdə davam etdirilir və Azərbaycanda demokratik qanunvericiliyin təkmilləşdirilməsini, insan hüquqları və azadlıqlarının təmin olunmasını, azad və demokratik seçkilərin keçirilməsini nəzərdə tutur. Bu bölmədə demokratik islahatlar, milli qanunvericiliyin təkmilləşdirilməsi, parlament və prezident seçkilərinin təşkili, korrupsiyaya qarşı mübarizə, insan hüquqları və d. məsələlərdə təşkilatla münasibətlərə diqqət yetirilmişdir.

**İkinci fəslin üçüncü bölməsi "Azərbaycan Respublikası və NATO"** adlanır. 2001-2010-cü illərdə Azərbaycan-NATO əməkdaşlığı siyasi dialoq, praktiki əməkdaşlıq, müdafiə və təhlükəsizlik sahəsində islahatlar,

mülki fövqəladə planlama, anti-terror, elm, ətraf mühit və digər sahələrdə inkişaf etdirilmişdir. Təhlükəsizlik sektorunda islahatların dəstəklənməsi və demokratiya institutlarının yaradılması NATO-Azərbaycan əməkdaşlığının mühüm elementi hesab olunur. Hazırkı mərhələdə Alyansla strateji tərəfdaşlıq müdafiə və təhlükəsizlik sahəsində islahatları, təhlükəsizlik risklərinin, o cümlədən terrorizm sahəsində, kiber və enerji təhlükəsizliyinə təhdidlərin qarşısının alınması və aradan qaldırılmasını əhatə edir. Əsasən hərbi, müdafiə və beynəlxalq təhlükəsizlik sahəsində qurulan əməkdaşlıq SNT çərçivəsində üç səviyyədə: Fərdi Tərəfdaşlıq Proqramı; Proseslərin Planlaşdırılması və Analizi Proqramı; Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı çərçivəsində həyata keçirilir. Bu bölmədə SNT mexanizminin təkmilləşdirilməsi sahəsində NATO-nun siyasəti və fərdi tərəfdaşlıq prosesləri araşdırılır. 2002-ci ildə Praqa sammitində tərəfdaş ölkələrə SNT-nin yeni mexanizmi kimi FTƏP təklif edildi. Azərbaycanın FTƏP-ın birinci mərhələsi 2005-2007-ci illəri əhatə edirdi və SQ üzərində demokratik nəzarətin yaxşılaşdırılmasını, müdafiə planlaşdırılması və müdafiə büdcəsinin yaradılmasını, SQ-in NATO norma və standartlarından istifadə olunmaqla yenidən təşkilini nəzərdə tuturdu. 2008-2010-cu illəri əhatə edən ikinci FTƏP sənədində DQ münaqişəsi, demokratik dəyərlər, müdafiə və təhlükəsizlik sektoru üzərində mülki demokratik nəzarət, seçkilərə dair məsələlər, eyni zamanda iqtisadi, müdafiə büdcə məsələləri də öz əksini tapmışdı. 2001-2010-cü illərdə çoxsahəli Alyansla əməkdaşlıq müəyyən dərəcədə qlobal və regional proseslərin təsirinə məruz qaldı. SNT, üzvlüyə hazırlıq mexanizmi kimi deyil, təşkilatla tərəfdaşlıq münasibətlərinin davamı kimi nəzərdən keçirilməyə başladı.

Bu bölümdə Azərbaycan Respublikasının NATO ilə sülhüyaratma və böhranlı hallara cavab əməliyyatlarında qarşılıqlı fəaliyyəti də geniş öyrənilmişdir.

**İkinci fəsilin dördüncü bölməsi “Azərbaycan Respublikası və Avropa Şurası”** adlanır. Azərbaycanın Avropa Şurası ilə əməkdaşlığı Avropa xalqları ailəsinə inteqrasiyanı və Avropa standart və dəyərlərindən bəhrələnməyi özündə ehtiva edir. H.Əliyev Respublikanın təşkilata üzv olması ilə əlaqədar AŞPA-da çıxışı zamanı demişdi: “Təcavüzkar millətçilik ideologiyasının, milli təkəbbür hissinin, qonşu dövlətlərə qarşı ərazi iddialarının hökm sürdüyü cəmiyyətdə demokratiya inkişaf edə bilməz. Bütün Cənubi Qafqaz regionunun AŞ-a daxil edilməsi çox mühüm amildir və bu regionda münaqişələrə son qoyulmasına, dövlətlər arasında münasibətlərin normallaşmasına, beləliklə də Cənubi Qafqazda və Avropada təhlükəsizliyin möhkəmlənməsinə xidmət etməlidir”.

Azərbaycan Respublikası nümayəndəliyinin AŞ-dakı fəaliyyətinin əsas vəzifələri ilk növbədə ölkə həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaqla Ermənistanın işğalçı siyasətini ifşa etmək, azərbaycanlılara qarşı ermənilərin həyata keçirdiyi terror və soyqırımı, torpaqların 20 faizinin işğal edilməsi faktını tanıtdırmaq, demokratik və hüquqi dövlət quruculuğu işində islahatları davam etdirmək, vətəndaş cəmiyyətinin inkişafını təmin etməkdir. Bu bölmədə demokratik islahatlar, seçkilərin təşkili sahəsində AŞ ilə əməkdaşlıq məsələləri, Azərbaycan Respublikası nümayəndə heyətinin AŞPA-dakı fəaliyyəti öyrənilir.

2001-ci ilin yanvarında təşkilata üzvlüyə qəbul zaman Azərbaycanın qarşısına beş bənddən ibarət öhdəliklər qoyuldu. Bura AŞ tərəfindən müxtəlif vaxtlarda qəbul olunmuş konvensiyaların imzalanması və ratifikasiyası, DQ münaqişəsinin dinc vasitələrlə nizamlanmasına dair öhdəliklər, daxili hüquqi və insan hüquqları, götürülmüş öhdəliklərin yerinə yetirilməsinə nəzarət məsələləri daxil idi. Azərbaycan Respublikası 2001-ci ildə yanvarın 25-də təşkilatın əsas sənədlərindən biri olan İnsan hüquq və azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasını və onun müvafiq protokollarını imzaladı, həmin ilin dekabrında insan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında konstitusiya qanununu qəbul etdi. 2002-ci ilin avqustunda və 2009-cu ilin martında referendum yolu ilə ölkə konstitusiyasına bir sıra əlavələr və dəyişiklər edildi. Tövsiyə olunan qırxdan çox konvensiya təsdiqləndi, vətəndaşların Konstitusiya Məhkəməsinə birbaşa müraciət hüququnu təmin edən qanun qəbul olundu, ictimai televiziya və radio yaradıldı. Milli azlıqların qorunmasına dair yeni qanun layihəsi hazırlandı.

Demokratik islahatlar sahəsində əməkdaşlıqda seçki qanunvericiliyinin təkmilləşdirilməsi, seçkilərə nəzarət, demokrtaik dövlət quruculuğu məsələlərinə xüsusi diqqət verilir və bu, demək olar ki, əlaqələrin başlıca istiqamətini təşkil edir. AŞ müntəzəm olaraq prezident və parlament seçkilərini müşahidə etmiş, qiymətləndirmiş və müvafiq qətmanələr qəbul etmişdir. Bu bölmədə AŞPA-nın qətnamələri, rəsmi bəyanatları, demokratik institutların fəaliyyətinə dair həmməruzəçilərin hesabatları, Azərbaycan hökumətinin həyata keçirdiyi tədbirlər əsasında Azərbaycanda demokratik cəmiyyət quruculuğu izlənilir. Eyni zamanda mövcud nöqsanlar, təşkilatla bu və ya digər məsələdə meydana çıxan mübahisəli məqamlar və onların səbəbləri araşdırılır. 2010-cu ildə dekabr ayında Azərbaycanda insan hüquqlarının qorunması və demokratikləşmə sahəsində əldə edilmiş nailiyyətləri nəzərə alaraq "Aqo" monitorinq qrupunun fəaliyyəti dayandırıldı. Digər öhdəliklər, o cümlədən DQ münaqişəsinin

sülh yolu ilə həllinə dair öhdəliklər üzərində nəzarət Demokratiya üzrə məruzəçi qrupun sadələşdirilmiş monitorinqi altına keçdi.

**İkinci fəslin "Azərbaycan Respublikası və Avropa İttifaqı"** adlanan **beşinci bölməsində** Aİ-nın Azərbaycanla əməkdaşlığı həm Cənubi Qafqaz regionu ilə ümumi regional maraqlar kontekstində, həm də ikitərəfli çoxsahəli əməkdaşlıq səviyyəsində nəzərdən keçirilir. Regionla bu və ya digər səviyyədə əlaqələrin qurulmasına baxmayaraq, Aİ-nın bu ölkələrə dair siyasətinin əsas xətti və strategiyası 2000-ci ilin əvvəllərindən etibarən müəyyənləşməyə başladı. Bunun əsas səbəblərindən biri Aİ-nın Şərqə doğru genişlənməsi nəticəsində meydana çıxan yeni qonşuluq münasibətləri idi. 2004-cü ildə on yeni üzvün Aİ-a qoşulması ilə bağlı Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinə (TƏS) Əlavə protokol imzalandı. 10 il üçün imzalanan TƏS-in icrası 2009-cu ildə bitdiyinə görə Sazişin icrası hər il bir il müddətinə uzadılmağa başladı. Aİ-nın genişlənməsi ilə bağlı yeni qonşulardan gələ bilən təhlükələrin qarşısını almaq məqsədilə 2004-cü ildə Avropa Qonşuluq Siyasəti (AQS) fəaliyyətə başladı və Azərbaycan Respublikası iyunun 14-də ona daxil oldu. AQS 2003-cü ilin dekabrında qəbul edilmiş Avropa Təhlükəsizlik Strategiyasının məqsədlərinə cavab verməli idi. Avropaya daha yüksək səviyyədə siyasi və iqtisadi inteqrasiya vəd edən AQS ona daxil olan ölkələr üçün tərəfdaşlığın gələcək inkişafı baxımından yeni bir mərhələ hesab olunurdu. 2006-cı ildə noyabrın 14-də qəbul edilən FP-da əməkdaşlığın prioritet istiqamətləri müəyyən olundu. 2006-cı ildə dekabrın 31-dən TƏS-in əsas maliyyə aləti olan TACİS proqramı, Yaxın Şərq və Aralıq dənizi ölkələri üzrə MEDA proqramı və digər tematik planlar öz fəaliyyətini yekunlaşdırdı və bütün tərəfdaş ölkələr (AQS üzrə tərəfdaşlar və Rusiya, Aralıq dənizi ölkələri) üçün yeni və vahid Avropa Qonşuluq və Tərəfdaşlıq Aləti (AQTA) təklif olundu. 2007-ci ildə yanvarından fəaliyyətə başlayan AQTA-nın strateji məqsədləri demokratiyaya keçidi dəstəkləmək, insan hüquqlarını təmin etmək, bazar iqtisadiyyatına keçid, sabit və davamlı inkişaf, o cümlədən ümumi maraqlara cavab verən siyasətə dəstək (terrorizmə, KQS-nın yayılmasına qarşı mübarizə, münaqişələrin nizamlanması, beynəlxalq hüququn aliliyi və s.) kimi sahələri əhatə edirdi. Bu çərçivədə Komissiya və tərəfdaş dövlətlərin əməkdaşlığı dörd əsas prinsip üzərində qurulurdu: əsas çoxtərəfli islahatlara dair gücləndirilmiş dialoqun aparılması; qanunvericiliyin uyğunlaşdırılması; institusional dəstək; BMT-nin Minilliyin inkişaf məqsədlərinin vəzifələri. AQTA daha bərabərhüquqlu inkişaf; tənzimləyici ticarət və islahatlar; bəzi sahələrin liberallaşdırılması; ədalət və daxili məsələlər; energetika; nəqliyyat, informasiya cəmiyyəti;

ekoloji sabitliyin təmin olunması; elmi araşdırmalar və innovasiyalar kimi müxtəlif sahələrdə fəaliyyəti maliyyələşdirirdi. Bundan əlavə, o, seçkilərin müşahidə olunmasını və münaqişədən sonra missiyaların yaradılması və fövqəladə hallara hazırlığa dəstəyi təmin edə bilərdi. Aİ 2007-2010-cu illərdə ölkələrin adam başına düşən ÜDM-ni nəzərə alaraq vəsaitlərin bölgüsü zamanı Azərbaycan Respublikasında FP-nin həyata keçirilməsi üçün 92 milyon avro ayırdı. 2007-2013-cü illərdə Aİ və Azərbaycan Respublikası arasındakı əməkdaşlığın əsas məqsədləri və prioritet sahələri iki əsas sənəddə: Ölkə üzrə strategiya sənədində və Milli indikativ proqramda öz əksini tapdı.

Azərbaycan Respublikasının Aİ ilə əlaqələrinin inkişafında növbəti mərhələ Şərq Tərəfdaşlığı (ŞT) hesab olunur. 2008-ci ilin mayında Polşa və İsveç tərəfindən irəli sürülən təşəbbüs, Şərqi Avropa Qonşuluq Siyasəti ölkələri üçün vahid formatın təsis edilməsini nəzərdə tuturdu və Azərbaycan, Gürcüstan, Ermənistan, Ukrayna, Moldova, Belarusu əhatə edirdi. Məqsəd tərəfdaş ölkələrdə rifahı və sabitliyi gücləndirməklə Aİ-nin təhlükəsizliyini möhkəmlədirmək, enerji təhlükəsizliyi və insan mobilliyi də daxil olmaqla ikitərəfli və çoxtərəfli əməkdaşlıq sahələrini inkişaf etdirmək idi. 2009-cu ildə mayın 7-də Praqa zirvə görüşündə təşəbbüsün əsas məqsədləri və prinsiplərini müəyyən edən Birgə bəyannamə qəbul edildi və ŞT rəsmən fəaliyyətə başladı. Hər bir tərəfdaş ölkə ilə daha sıx əlaqə yaratmaq məqsədilə TƏS əvəzinə Assosiasiya sazişləri imzalamaq, tərəfdaş ölkənin DTT-ə üzv olacağı təqdirdə onunla geniş azad ticarət zonası yaratmaq, vizaları tədricən liberallaşdırmaq, tərəfdaş ölkələrin və Aİ-nin enerji təhlükəsizliyini gücləndirmək planlaşdırıldı. Maliyyə sektoru da daxil olmaqla yaxşı idarəçiliyin dəstəklənməsi, regional inkişaf və sosial-iqtisadi bərabərsizliyin azaldılması məqsədilə Avropa Komissiyası (AK) tərəfindən tərəfdaş ölkələrlə siyasi dialoqun aparılması və yaxınlaşma siyasəti modeli əsasında Pilot Regional İnkişaf Proqramı (PRİP) hazırlamaq təklif edildi. Dövlət institutlarının möhkəmləndirilməsi, sərhədlərə nəzarət və kiçik şirkətlərə kömək məqsədilə 2009-2013-cü illərdə ŞT çərçivəsində tərəfdaş ölkələrə 600 milyon avro məbləğində yardım ayrılması nəzərdə tutuldu. ŞT çərçivəsində Azərbaycanın müvafiq strukturlarının, hökumət və parlament üzvlərinin Avropa Parlamenti (AP) ilə əməkdaşlığı genişləndi, qarşılıqlı fikir mübadiləsi və dialoqlar mütəmadi xarakter aldı. 2010-cu ildə iyul ayının 16-da Bakıda Aİ ilə Azərbaycan Respublikası arasında Assosiasiya sazişi üzrə, daha sonra Aİ ilə sadələşdirilmiş viza rejiminin yaradılmasına dair rəsmi danışıqlar başladı. TƏS-in 43-cü maddəsinə müvafiq olaraq götürülən öhdəliklərin icra edilməsi ilə bağlı "Azərbaycan

Respublikası qanunvericiliyinin Aİ qanunvericiliyinə uyğunlaşdırılması üzrə 2010-2012-ci illər üçün Tədbirlər Planı" təsdiq edildi.

Son dövrlərdə Avropanın neftə və qaza tələbatının artması Aİ-ni enerji təhlükəsizliyinə dair siyasətinə yenidən baxmağa vadar etdi. 2006-cı ildə AK və onun Ali nümayəndəsinin Birgə hesabatı qarşıdakı dövr üçün Avropanın enerji siyasətini müəyyən edirdi. Enerji daşıyıcılarına olan tələbatının böyük hissəsini məhdud sayda ölkələrdən idxal etməyi planlaşdıran Aİ, bu ölkələrdə sabitliyin və təhlükəsizlyin təmin olunmasında və birlik daxilində daha güclü qarşılıqlı əlaqələrə malik unifikasiya olunmuş enerji bazarının yaranmasında maraqlıdır. Bu baxımdan Aİ-nın Azərbaycan Respublikası ilə əməkdaşlıqda maraqlı olduğu sahələrdən biri də enerji təhlükəsizliyidir. Enerji dialoqu çərçivəsində əməkdaşlığın davamı olaraq 2006-cı ildə noyabr ayının 7-də Brüsseldə Azərbaycan Prezidenti Aİ və Azərbaycan Respublikası arasında enerji üzrə strateji əməkdaşlığa dair anlaşma memorandumunu imzaladı.

Nəqliyyat və enerji sahəsində Azərbaycan Respublikası ilə əməkdaşlıq 2001-ci ilədək və ondan sonrakı dövrlərdə TRACECA və INOGATE proqramları çərçivəsində həyata keçirildi. INOGATE Aİ-nin yeni müstəqil dövlətlərə maliyyə dəstəyi çərçivəsində həyata keçirdiyi əsas regional təşəbbüslərdən biridir. 2004-cü ilə qədər proqramın fəaliyyəti ancaq neft-qaz sektorunda texniki məsələrə aid idi. 2004-cü ildə noyabrın 13-də Bakıda tərəfdaş dövlətlərin enerji nazirlərinin konfransında onun səlahiyyətləri artırıldı. Aİ-nin Qara dəniz və Xəzər dənizi hövzəsi dövlətləri ilə enerji sahəsində əməkdaşlığı genişləndirməyə yönələn daha geniş siyasi dialoqunun əsası qoyuldu. Konfransın nəticələrinə əsasən bu proses Bakı təşəbbüsü adlanmağa başladı. 2006-cı ildə Astanada enerji nazirlərinin ikinci konfransında INOGATE proqramının transformasiyası başa çatdırıldı və fəaliyyəti elektrik enerjisi, bərpa olunan enerji mənbələri və enerji səmərəliliyi kimi yeni sahələri əhatə etməklə genişləndirildi. Eyni zamanda texniki səlahiyyətləri artırıldı ki, bura da hüquqi normativ məsələlər və investisiyaların cəlb olunması məsələləri daxil idi. Konfransın nəticələrinə əsasən qəbul edilən uzunmüddətli Enerji yol xəritəsi hazırda INOGATE proqramının fəaliyyətinin ümumi istiqamətini müəyyən edir.

**“Beynəlxalq təşkilatlarda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi” adlanan üçüncü fəsil** iki bölmədən ibarətdir. Birinci bölmə ATƏT-in Minsk qrupunun vasitəçilik fəaliyyətinə həsr olunub. İlk öncə 2001-ci ilə qədər olan dövrdə “*münaqişənin paket həlli*”, “*mərhələli həll planı*” (1997), “*ümumi dövlət*” (1998) ideyaları, *hərtərəfli həll planı (2000)* haqda qısa məlumat verilir.

Daha sonra 2001-2010-cu illərdə danışıqlar prosesi geniş şəkildə araşdırılır, 2002-ci ilin mayında həmsədrlərin təklifləri əsasında münaqişə tərəfləri arasında birbaşa dialoqun davamı kimi Azərbaycan və Ermənistan Respublikası prezidentlərinin şəxsi nümayəndələrinin Praqa prosesi adlanan əlavə səviyyədə danışıqları başladı. Prosesin davamı olaraq 2006-cı ildə iyun ayında Buxarestdə "DQ münaqişəsinin gələcək nizamlanmasının əsas prinsiplərinə dair" sənəd irəli sürüldü. Bu bölmədə Praqa prosesi və Buxarest təklifləri əsasında müzakirə olunan və razılaşdırılmamış məsələlər nəzərdən keçirilir. 2007-ci ildə noyabın 29-da Madriddə həmsədrlər növbəti Baza prinsiplərini (Madrid prinsipləri və ya mərhələli həll planı) təklif etdilər. Bura DQ ətrafındakı torpaqlar və Ermənistanın işğal etdiyi ərazilərin Azərbaycana qaytarılması; məcburi köçkün düşmüş şəxslərin DQ-a qayıtması, bu regiona müvəqqəti (aralıq) statusun, o cümlədən təhlükəsizlik təminatlarının və özünüidarə hüququnun verilməsi; beynəlxalq sülhyaratma əməliyyatlarının keçirilməsi; gələcəkdə DQ əhalisinin qanuni iradəsi əsasında regionun statusunun müəyyən olunması daxil idi. Mərhələli həll planı müəyyən mənada Azərbaycan dövlətinin maraqlarına uyğun idi, baxmayaraq ki, Laçın və Kəlbəcərin statusunu əks etdirmirdi, referendum məsələsi razılaşdırılmamış qalırdı. Bu arada MQ-nun fəaliyyətinin səmərəsizliyinə cavab olaraq Azərbaycan DQ münaqişəsinin BMT çərçivəsində həllinə növbəti cəhd etdi. Martın 14-də BMT BA-nın sessiyasında "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyətə dair" qətnamə müzakirəyə çıxarıldı və erməni qüvvələrinin işğal olunmuş Azərbaycan Respublikası ərazisindən tez bir zamanda tamamilə və heç bir şərt olmadan çıxarılması tələb olundu. Lakin ATƏT üzvlərinin böyük əksəriyyəti, o cümlədən həmsədr ölkələr sənədin əleyhinə səs verdilər. Onlar elan etdlər ki, qətnamə tarazlaşdırılmış Madrid prinsiplərini pozur, birtərəfli xarakter daşıyır və həll prosesinin hər hansı digər təşkilatın müstəvisinə keçməsi məqsədəuyğun deyildir.

2009-cu ildə iyulun 10-da İtaliyanın Akvila şəhərində Böyük 8-lərin sammitində həmsədr ölkələr DQ münaqişəsinə dair Birgə bəyanat verdilər və Madrid sənədinin Baza prinsiplərinin yenilənmiş variantını təklif etdilər. Baza prinsipləri Helsinki Yekun Aktının güc tətbiq etməmək, ərazi bütövlüyü və xalqların bəqabərhüquqluluğu və özünüidarəetmə hüququna əsaslanan mümkün komrpomisini əks etdirirdi. Həmin ilin dekabrında ATƏT-in Nazirlər Şurasının Afina görüşü ərəfəsində Ermənistan ilk dəfə olaraq ərazi bütövlüyünü əks etdirən sənədə qoşulmalı oldu. 2010-cu ilin yanvarında Baza prinsiplərinin ən son əlavələrindən ibarət yenilənmiş variantı təklif edildi. Yeni həll variantına görə birinci mərhələdə

Azərbaycan əraziləri “5+1” düsturu üzrə azad edilirdi. Ermənistan işğal etdiyi Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlını, həmçinin Laçın rayonunun on üç kəndini azad etməli idi. Bundan sonra regionda bütün kommunikasiyalar açılmalı, azad edilmiş torpaqların bərpası üzrə donor konfransı keçirilməli, regionda sülhməramlı müşahidəçilər yerləşdirilməli, doğma yurdlarına qayıdan köçkünlərin təhlükəsizliyi təmin edilməli idi. Növbəti mərhələdə Laçın və Kəlbəcər rayonları tamamilə azad edilməli, azərbaycanlı icması DQ-a qayıtmalı, bundan sonra Azərbaycanın ərazi bütövlüyü çərçivəsində DQ-ın hüquqi statusu müəyyən olunmalı idi. Bu zaman DQ-a RF tərkibində Tatarıstan və Başqırdıstan modeli üzrə yüksək muxtariyyətin verilməsi məsələsi də nəzərdən keçirilə bilərdi. Azərbaycan Respublikasının bəzi istisnalarla Madrid sənədini qəbul etdiyi məlum olsa da Ermənistan qəti mövqeyini elan etmədi. 2010-cu ildə iyunun 26-da Muskokada (Kanada) Böyük 8-lərin görüşündə və dekabrın 1-də ATƏT-in Astana sammitində həmsədr ölkələr münaqişənin birdəfəlik həllinə dair öhdəliklərini bir daha təsdiq etdilər.

Müxtəlif formatlı görüşlərə və həll variantlarına baxmayaraq MQ-nun danışıqları 2001-2010-cu illərdə də nəticəsi başa çatdı. Bu müddətdə həmsədr dövlətlərin tərkibi dəyişmədi. Münaqişənin nizamlanmasında marağı olan, eləcə də həll prosesinə bu və ya digər dərəcədə təsir imkanlarına malik digər region və qeyri-region dövlətləri vasitəçilik siyasətindən kənarda qaldılar. Münaqişənin həlli demək olar ki, üç dövlətin nəzarətinə keçdi. MQ-nun üçü həmsədr olmaqla beş ölkəsində (Rusiya, Fransa, ABŞ, Almaniya, Ermənistan) separatçı qondarma DQ rejimin bu və ya digər ad altında nümayəndəlikləri fəaliyyət göstərir. Ermənidilli KİV-in verdiyi məlumatlara görə bu nümayəndəliklər səfirlik funksiyalarını yerinə yetirirlər və bu, onlara yerləşmə ölkəsinin müvafiq hökumət strukturları ilə siyasi, iqtisadi, humanitar və digər sahələrdə birbaşa əlaqələr yaratmağa imkan verir. İşğalçı Ermənistanda və qondarma rejimdə hesab edirlər ki, *de-yure* tanınmasa da, bu ölkələrdəki erməni diasporaların yardımı və dəstəyi nəticəsində qondarma DQ Respublikası artıq çoxdan beynəlxalq birliyin və biznesin *de-facto* tərkib hissəsinə çevrilmişdir. ABŞ 1997-ci ildən separatçı rejimə maliyyə yardımı göstərir. Rusiya deputatları dəfələrlə qondarma rejimdə parlament və prezident seçkilərində beynəlxalq müşahidəçi qismində iştirak etmişlər. Bu xüsusda MQ-nun fəaliyyəti böyük dövlətlərin geosiyasi, hərbi, iqtisadi və d. maraqlarının ciddi şəkildə toqquşduğu və bəzi hallarda bir-birini tamamladığı diplomatik oyuna çevrilmişdir.

**Üçüncü fəslin ikinci bölməsində** Dağlıq Qarabağ münaqişəsinin həll olunmasında ayrıca olaraq NATO-nun, AŞ-nın və Aİ-nın siyasəti öyrənilir. Azərbaycan dövləti NATO ilə əlaqələrinin elə ilk vaxtlarından münaqişənin Alyansın malik olduğu siyasi və hərbi vasitələrin köməyi ilə həllinə cəhdlər etmişdir. Hətta 2001-ci ilin sentyabrından sonra terrorizmə qarşı beynəlxalq birliyin əməkdaşlığı, NATO-nun bu sahədə fəallığının artması DQ münaqişəsinin terrorizmlə mübarizə aspektində həllinə böyük ümidlər yaratmışdı. 2002-ci ildə NATO-nun Praqa sammitində Prezident H.Əliyev Cənubi Qafqaz regionunda davam edən münaqişələrin həllində NATO-nu daha fəal olmağa çağırdı. Bu çağırış sonrakı dövrlərdə də öz aktuallığını itirmədi. Lakin tədqiq olunan dövr ərzində NATO-nun DQ siyasətinin araşdırılması onu göstərir ki, Alyans birmənalı şəkildə münaqişə tərəflərini təqsirləndirməkdən (həm də Ermənistanı təcavüzkar dövlət kimi tanımaqdan) imtina edir, regionda sülh prosesinin nizamlanmasında aparıcı rola iddia etmir. Digər tərəfdən, GUAM, ATƏT və MQ, BMT kimi təşkilatların, SNT və AATŞ-nın mexanizmlərin köməyi ilə münaqişənin həllində bütün səyləri (kollektiv həll yolunu) dəstəkləyir. Münaqişənin həllində məsuliyyəti region dövlətlərinin üzərinə qoymaqla yanaşı NATO rəsmiləri hesab edirlər ki, regiondankənar qüvvələrin iştirakı olmadan münaqişənin həlli qeyri-mümkündür və Azərbaycan Respublikasının Rusiya ilə ikitərəfli əməkdaşlığını davam etdirməsi zəruridir. Alyans münaqişənin hərbi yolla həllini pisləyir, çünki Avropaya gedən enerji daşıyıcılarının mühüm bir hissəsi buradan keçir və Qarabağda müharibənin başlaması üzv ölkələrin enerji təhlükəsizliyi və tərəfdaş Gürcüstan üçün ciddi risk yarada bilər. NATO-nun DQ siyasəti bir növ ATƏT-in MQ-nun siyasətinin məntiqi davamıdır və münaqişələrin nizamlanmasında kollektiv mübarizə prinsiplərindən və üsullarından bilərəkdən imtina edilməsi kimi qiymətləndirilə bilər.

DQ münaqişəsinin həlli məsələsini Cənubi Qafqazın regional təhlükəsizliyi baxımından nəzərdən keçirən AŞ, ilk növbədə regional əməkdaşlığın yaradılmasını zəruri hesab edərək AŞPA Siyasi komitəsinin tərkibində üç region ölkəsindən ibarət İşçi qrup yaratdı. Qrupun müntəzəm görüşlərində bölgədə sabitlik paktının hazırlanması, əsir və itkin düşənlərin qaytarılması və bir sıra digər sahələrdə əməkdaşlığın perspektivləri müzakirə olundu. Əsas mövzu regional əməkdaşlıqda ilk növbədə siyasi, yoxsa iqtisadi əlaqələri bərpa etmək məsələsi idi. Ermənistanın iqtisadi sahədə əməkdaşlıq maraqlarına cavab olaraq Azərbaycan, münaqişə həllini tapmayana və bölgədə sülh yaranmayana qədər Ermənistanla hər hansı əməkdaşlıq qurmaqdan qəti şəkildə imtina edir. AŞPA-da Azərbaycan

nümayəndə heyətinin diplomatik fəaliyyəti nəticəsində DQ-a dair çoxsaylı müzakirələr aparıldı və Ermənistanın işğalçı hərəkətlərini pisləyən sənədlər qəbul edildi. 2003-cü ildə AŞPA-da DQ üzrə məruzəçi təyin olundu. AŞPA-da DQ münaqişəsi ilə birbaşa əlaqəli olan "Avropada muxtar vilayətlərin müsbət təcrübəsi" mövzusunda müzakirələrdə İ.Əliyevin təklifi ilə sənədə muxtar vilayətlərin ərazi bütövlüyünü pozmaq səlahiyyətlərinə malik olmadığı barədə maddə əlavə edildi. 2005-ci ildə yanvarın 25-də AŞPA "ATƏT-in Minsk konfransının məşğul olduğu DQ regionunda münaqişə haqqında" qətnamə qəbul etdi. Azərbaycan ərazisinin böyük hissəsinin erməni qüvvələri tərəfindən işğal edildiyi, DQ regionuna hələ də separatçı qüvvələr tərəfindən nəzarət olunduğu göstərilir, regionda hərbi əməliyyatlar nəticəsində etnik təmizləmə və monoetnik rayonlar yaratmaq siyasəti pislənilirdi. MQ üzvlərinin milli nümayəndə heyətlərinə hər il Assambleyaya münaqişənin nizamlanması sahəsində fəaliyyətlərinə dair hökumətlərinin məruzələrini təqdim etməyi təklif etdi. Bu məqsədlə 2005-ci ilin iyununda DQ üzrə komitə yaradıldı. Hər iki ölkənin siyasi barışığına nail olmaq məqsədilə PA çərçivəsində parlament sədrlərinin müşavirəsi kimi "Qafqaz dördlüyü" forumlarında ikitərəfli parlamentlərarası əməkdaşlığı fəallaşdırmaq çağırışı edildi. AŞPA-nın 2008-ci ilin yay sessiyası qəbul etdiyi qətnamədə ərazi bütövlüyü bərpa olunmayana qədər Azərbaycanda sabit demokratik inkişafın çox çətin gedəcəyəni bildirdi.

Avropa İttifaqı Cənubi Qafqazda sülhün və sabitliyin bərqərar olunmasını regionun iqtisadi inkişafı və burada yaşayan xalqların maddi rifahının yüksəlməsinin ən vacib şərti hesab edir. Aİ, ilk növbədə münaqişənin həll olunmasında əsas tərəf kimi münaqişə tərəflərini və onların kompromisini nəzərə alır. Regionda rolunu fəallaşdırmaq məqsədilə 2003-cü ilin iyulunda Cənubi Qafqaz üzrə Xüsusi nümayəndə təyin edildi. 2004-cü ilin martında Aİ, DQ münaqişəsinin dinc vasitələrlə nizamlanması məqsədilə Azərbaycan Respublikasının kommunikasiya xətlərini açması müqabilində işğal olunmuş beş rayonun azad olunması barədə təkliflə çıxış etdi. 2008-ci ilin dekabrında ATS-in tətbiq olunmasına dair qəbul edilən hesabatda ŞT çərçivəsində Cənubi Qafqazda münaqişələrin həllinin əməkdaşlığın inkişafında mühüm rol oynaya biləcəyi qeyd olundu. Burada münaqişələrin nizamlanmasına dair daimi tədbirlər həyata keçirməyin zəruriliyi göstərildi. Aİ hesab edir ki, ŞT proqramı iqtisadi fayda verməklə yanaşı eyni zamanda Azərbaycan Respublikasına qonşuları ilə dialoqa başlamağa kömək edəcək ki, bu da istənilən münaqişənin həllinin mühüm aspektidir. 2010-cu ildə iyun ayında AP Ermənistanın işğalçı qüvvələrinin Azərbaycan torpaqlarından dərhal çıxarılması ilə bağlı qətnamə qəbul etdi.

**Nəticədə** tədqiqat işinə dair ümumləşdirmələr aparılmış, Avro-Atlantik təhlükəsizlik məkanında beynəlxalq təşkilatların rolu, üzv və tərəfdaş dövlətlərlə əməkdaşlığın müasir vəziyyəti qiymətləndirilmişdir.

Dissertasiyanın əsas müddəaları nəşr edilmiş aşağıdakı məqalələrdə öz əksini tapmışdır:


1. Beynəlxalq təhlükəsizlik və əməkdaşlıq sistemində Azərbaycan-ABŞ münasibətləri// AMEA Folklor İnstitutunun "Elmi axtarışlar" jurnalı, Bakı, 2006, №XX, s. 220-224
2. Müasir beynəlxalq münasibətlər tarixində kollektiv təhlükəsizlik və əməkdaşlıq məsələləri və beynəlxalq təşkilatlar// AMEA Folklor İnstitutunun "Elmi axtarışlar" jurnalı, Bakı, 2006, №XXIV, s. 218-223
3. Azərbaycan-NATO əməkdaşlığının yaranma tarixi və inkişafı// Dünyaya baxış: Elmi nəzəri praktik jurnal, Bakı, 2007, №5, s. 116-128
4. Müstəqillik sonrası Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda təhlükəsizlik və əməkdaşlıq sahəsində inteqrasiya prosesləri // Qafqaz Universiteti "Qloballaşma prosesində Qafqaz və Mərkəzi Asiya: iqtisadi və beynəlxalq əlaqələr" adlı II beynəlxalq konfransın materialları. Bakı, 2-5 may 2007, s. 100-106
5. Отношения Азербайджанской Республики и СНГ в области региональной безопасности и сотрудничества // «Кавказ и Мир» международный научный журнал, Тбилиси, 2010, №8, s. 28-36
6. The role of international organizations in the inteqration process in the countries of South Caucasus // Qloballaşma prosesində Qafqaz və Mərkəzi Asiya. IV Beynəlxalq Konqresin materialları. Bakı, 02-04 may 2014-cü il, s. 760-767
7. 2001-2014-cü illərdə Azərbaycan-NATO əməkdaşlığının başlıca istiqamətləri // "Sivilizasiya", Elmi-nəzəri jurnal, Bakı, 2015, №1, s. 101-110
8. Avro-Atlantika təhlükəsizlik məkanında tərəfdaşlıq prosesləri və NATO - Azərbaycan əməkdaşlığı // "Hərbi bilik" jurnalı, Bakı, 2015, №1, s. 76-92
9. Avropada təhlükəsizlik və etimadı möhkəmləndirmə tədbirləri və Azərbaycan - ATƏT əməkdaşlığı // "Hərbi bilik" jurnalı, Bakı, 2015, №4, s. 83-93
10. Avropa İttifaqının təhlükəsizlik siyasətində Azərbaycanla qonşuluq və tərəfdaşlıq münasibətləri // Geostrategiya, Aylıq ictimai-siyasi, elmi-populyar jurnal, Bakı, 2015, № 04 (28), s. 33-37

11. ATƏT-in Minsk qrupunun vasitəçilik fəaliyyəti və onun nəticələri // Geostrategiya, Aylıq ictimai-siyasi, elmi-populyar jurnal, Bakı, 2016, № 03 (33), s. 37- 42
12. The mediation policy of OSCE in the provision of European security and its results //«Кавказ и Мир» международный научный журнал, Тбилиси, 2016, №, s. 11-14
13. Türkiyənin Cənubi Qafqaz ölkələri ilə hərbi əməkdaşlığı // IV Beynəlxalq türk dünyası araşdırmaları simpoziumu. Niğde (Türkiyə), 26-28 aprel 2017. Bildiriler kitabı s. 115-124

**Рустамова А.В.**

## Азербайджанская Республика в системе международной безопасности и сотрудничества (2001-2010 гг.)

## РЕЗЮМЕ

Диссертационная работа посвящена одному из очень актуальных тем современных международных отношений и современной истории Азербайджана, проблеме международной безопасности и сотрудничества и участие Азербайджана в этом процессе.

Диссертационная работа состоит из введения, трех глав, заключения и списка литературы.

Во введении диссертационной работы обосновывается актуальность темы, рассматривается степень изученности, научная новизна, определяются цели и задачи исследования, хронологические рамки, показаны методологические основы и апробация.

Первая глава называется «Проблемы международной безопасности и внешняя политика Азербайджанской Республики». В этой части научной работы изучается современные вызовы и угрозы к международной безопасности и вопросы сотрудничества и партнерства. В том числе, характеризуется основные внешнеполитические задачи Азербайджана на основе Концепции национальной безопасности.

Во второй главе исследуется сотруднические отношения Азербайджанской Республики евроатлантическими структурами с НАТО, СЕ, ОБСЕ и ЕС. Показаны основные направления, цели и задачи взаимного сотрудничества, анализируется текущие состояние интеграционных процессов партнерства.

Третья глава посвящается урегулированию Армяно-Азербайджанской Нагорно-Карабахской проблеме в евроатлантических организациях. Изучается и анализируется посредническая деятельность Минской группы ОБСЕ 2001-2010 гг., политика стран сопредседателей в переговорном процессе. В том числе исследуется политика ЕС, НАТО и ЕС в мирном урегулировании конфликта.

В заключении отражены основные выводы и итоги исследовании.

**Rustamova A.V.**

## The Azerbaijan Republic in the system of the international security and cooperation (2001-2010)

## SUMMARY

This dissertation is devoted to one of the very urgent issues of modern international relations and modern history of Azerbaijan, the problem of international security and cooperation and Azerbaijan's participation in this process.

The dissertation consists of an introduction, three chapters, a conclusion and a list of references.

In the introduction of the dissertation, the relevance of the topic is substantiated, the degree of study is studied, the scientific novelty is determined, the goals and objectives of the study are determined, the chronological framework, methodological bases and approbation are shown.

The first chapter is called "Problems of International Security and Foreign Policy of the Republic of Azerbaijan". In this part of the scientific work, modern challenges and threats to international security and issues of cooperation and partnership are being studied. This includes the main foreign policy objectives of Azerbaijan on the basis of the National Security Concept.

In the second chapter, the cooperation of the Azerbaijani Republic with Euro-Atlantic structures with NATO, the CE, the OSCE and the EU is explored. The main directions, goals and tasks of mutual cooperation are shown, the current state of integration processes of partnership is analyzed.

The third chapter is dedicated to the settlement of the Armenian-Azerbaijani Nagorno-Karabakh conflict in Euro-Atlantic organizations. The mediation activities of the OSCE Minsk Group 2001-2010, the policy of the co-chair countries in the negotiation process are studied and analyzed. In particular, the policy of the EU, NATO and the EU is explored in the peaceful settlement of the conflict.

The conclusion reflects the main conclusions and results of the study.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ИСТОРИИ имени А.А. БАКИХАНОВА**

*На правах рукописи*

**АЙБЕНИЗ ВИЛАЯТ кызы РУСТАМОВА**

# АЗЕРБАЙДЖАНСКАЯ РЕСПУБЛИКА В СИСТЕМЕ МЕЖДУНАРОДНОЙ БЕЗОПАСНОСТИ И СОТРУДНИЧЕСТВА (2001-2010 гг.)

**Специальность**: **5503.02 – Отечественная история**

# А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени**
**доктора философии по истории**

**БАКУ- 2018**